**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin 2018- ci il 16 may tarixli Ü-012 nömrəli əmri ilə təsdiq edilmiş**

**Bal arılarının, eşşək arılarının və qarayonca yarpaqkəsən arıların Azərbaycan Respublikasına idxalı zamanı**

# BAYTARLIQ TƏLƏBLƏRİ

Azərbaycan Respublikasına idxala ixracat ticarəti təsərrüfatları (arıçılıq təsərrüfatları, laboratoriyalar) üçün təsdiq olunmuş və kənd təsərrüfatı və ev heyvanlarının təhlükəli yoluxucu xəstəliklərindən azad (BEB-in "A" siyahısı) inzibati ərazilərdən alınmış sağlam eşşək arıları və arı ailələrinə, onların ana arılarına və paketlərinə, qarayonca yarpaqkəsən arıların sürfələrinə (baramalarına) icazə verilir, həmçinin:

- donuzların Afrika taunundan – son 3 il ərzində ölkə ərazisində;
- dabaq xəstəliyindən - son 12 ay ərzində ölkə ərazisində;

**Bal arıları üçün –** Akariozdan (akaripidioz), Amerika çürümə xəstəliyindən, Avropa çürümə xəstəliyindən, nozematozdan, varroatozdan (gənənin akarisidin formalarına dayanıqlığının mövcudluğu) – son 2 il ərzində və arıların digər yoluxucu xəstəliklərindən son 8 ay ərzində 5 km radiusda;

**Eşşək arıları üçün –** Lokustakarozadan (bombakaroz), nozematozdan, qreqarinozdan, kritidiozdan, aspergilyozdan, askosferozdan, sferulyariozdan, spiroplazmozdan və digər bakteriozlardan, kəskin iflicdən, Kəşmir virusundan, entopoks-virusdan və yetişdirmə üçün qapalı yerlərdə gənələrin olmaması zamanı miazlardan, həmçinin mellitobiydən, brakoniddən, quru meyvələrin qızılkəpənəyindən (Vitula edmandsea) – son 2 il ərzində;

**Qarayonca yarpaqkəsən arıların baramaları üçün –** Askosferozdan, bakteriozdan və baramaların toplanılması ilində baramaların eşşək arıları, malçibinləri, ququ-arıları tərəfindən halsidlərlə (mellitobiylə, pteromalyusla, monodontomerlə, tetrastixusla, dibraxislə) 0,05%-dən çox olmayaraq yoluxması şərtilə.

Materialın mənşə dairəsində minimum son 2 il ərzində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin nəzarəti altında BEB tərəfindən tövsiyə edilən baytarlıq nəzarətinə dair bütün müddəalar daimi olaraq yerinə yetirilir.

Xəstəliklərə görə arıların və eşşək arılarının sağlamlıqlarının təsdiqi kimi ixracatçı ölkənin dövlət laboratoriyalarında yerinə yetirilmiş kliniki və laborator tədqiqatların mənfi nəticələridir.

Azərbaycan Respublikasına göndərilməsinə 30 gün qalmış eşşək arıları və arı ailələrinin, 1-3 gün qalmış isə ana arılarının seçimi həyata keçirilir. Azərbaycana göndərilməzdən öncə seçilmiş eşşək arıları, arı ailələri və ana arılar daimi olaraq ixracatçı ölkənin dövlət baytarlıq xidmətinin kliniki nəzarəti altında saxlanılır. Qarayonca yarpaqkəsən arıların baramaları partiyasının formalaşdırılması hər bir tədarükçünün təsərrüfatının sağlamlığının nəzərə alınması ilə yerinə yetirilir.

İxrac üçün seçilmiş həşaratlar tərkibində gen mühəndisliyinin üsulları və ya digər genetik cəhətdən modifikasiya edilmiş mənbələr vasitəsilə istehsal edilmiş xammal tərkibli yemlərlə yemləndirilməmişlər.

Konteynerlər, yemlər və qablaşdırma materialı bal arılarının yoluxucu xəstəliklərinə görə sağlam ərazilərdən gəlməlidir. Eşşəkarılarının, bal arılarının və ana arılarının, yarpaqkəsən arıların yerləşdirilməsindən öncə qablaşdırma materialını profilaktiki dezinfeksiya və dezakarizasiya edirlər.

Nəqliyyat vasitələri ixracatçı ölkədə qəbul edilmiş qaydalara uyğun işlənilir və hazırlanır.

Hazırkı tələblərdə göstərilmiş şərtlərin yerinə yetirilməsi ixracatçı ölkənin dövlət baytar həkimi tərəfindən imzalanmalı, diaqnostik müayinələrin tarixləri göstərilməklə ixracatçı ölkənin dilində və ingilis dilində tərtib olunmuş baytarlıq sertifikatı ilə tam təsdiq olunmalıdır. Qarayonca yarpaqkəsən arıların baramalarına dair sertifikata partiyaya daxil edilmiş nümunlərin rentgenoqramları əlavə olunur.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi özünün baytar mütəxəssislərinin qüvvəsi ilə seçilmiş materialın Azərbaycan Respublikasına mümkün idxalı üzrə müfəttişlik yoxlamalarının aparılması hüququnu özündə saxlayır.

İdxalçı ölkə tərəfindən alınmış arı ailələri (paketlər) təyinat yerinə gətirilən zaman dezinfeksiya edilmiş arı pətəklərinə köçürülür və arıçının daimi nəzarəti altında əsas arı təsərrüfatından mümkün qədər maksimum aralı məsafədə, təcrid olunmuş qaydada karantin arı təsərrüfatında (nöqtədə) saxlanılır. Hər 10 gündən bir ailələlərə baxış keçirilir, arılardan və onların törəmələrindən nümunələr seçib götürürlər və müayinə edilmələri üçün dövlət baytarlıq laboratoriyasına göndərirlər.

Karantin arı təsərrüfatında yol verilmir:

- əsas arı təsərrüfatına təhkim edilmiş və əsaslı dezinfeksiyadan keçməmiş şanıların, ləvazimatların və avadanlıqların istifadəsinə;
- əsas arı təsərrüfatının törəmələrinin (arılarının) hesabına gətirilmiş ailələrin yanına yerləşdirilməsinə.

Gətirilmiş eşşəkarılarının paketlərini istixanalara yollayırlar. Eşşəkarılarının ailələrinin vəziyyətinin qiymətləndirilməsi şirkət tərəfindən zəmanət verilmiş istismar müddəti ərzində onların tozlandırma fəaliyyəti üzrə aparılır: iki həftədə bir dəfə tozlandırılmaya hazır 100 pomidor çiçəklərinə baxış keçirirlər (qəhvəyi nöqtələrlə 60% gülün olması zamanı – tozlandırma əladır; 50-59% – yaxşıdır; 49-40% – qənaətbəxşdir).

Müxtəlif mənşəli eşşəkarıları ailələrinin bir seksiyada yerləşdirilməsinə yol verilmir. Eşşəkarılarının paketlərinin açılması, onların yuvalarına baxış və müayinələri tədarükçü şirkətin və yerli qida təhlükəsizliyi qurumunun nümayəndələrinin iştirakı ilə həyata keçirilir.

Qarayonca yarpaqkəsən arıların baramalarının daxil olması zamanı hər bir konteynerdən olan nümunələrin açılmasını yerinə yetirir, baramaların sınaq inkubasiyasını həyata keçirirlər.

Sifarişçi tərəfindən yuxarıda göstərilən tələblərə cavab verməyən materialların aşkar edilməsi zamanı tədarükçüyə reklamasiya təqdim edilir.